VERTIC

# Bakterioloji (bioloji) və toksin silahlar haqqında 1972-ci il tarixli Konvensiyanın və BMT-nin Təhlükəsizlik Şurasının 1540 saylı Qərarının müvafiq tələblərinin həyata keçirilməsinə dair Milli Aktın nümunəvi forması

© VERTIC 2012

# GİRİŞ

Bu “Nümunəvi Akt forması” ölkələrə Bakterioloji (bioloji) və toksin silahlar haqqında 1972-ci il tarixli Konvensiyanın və BMT-nin Təhlükəsizlik Şurasının 1540 saylı Qərarının bioloji silahlarla əlaqədar müddəalarını həyata keçirmək üçün müvafiq qanunvericilik hazırlamaqda kömək etmək məqsədilə hazırlanmışdır. O, qanunvericilərin öz ölkələrinin hüquqi bazasını, biotexnoloji inkişaf səviyyəsini və digər milli şəraitini nəzərə almaqla sərbəst şəkildə istifadə edə biləcəyi vasitədir.

Bioloji və toksin silahlarla fəaliyyətlərin qarşısının alınması və qadağan edilməsi sahəsində qanunvericilik, bioloji vasitələrdən və toksinlərdən qeyri-dövlət subyektləri tərəfindən qanunsuz istifadə edilməsi cinayətlərini və həmin cinayətlərə görə cəzaları, həmçinin dövlətlərin qanuni fəaliyyətləri effektiv şəkildə tənzimləməsinə imkan yaradan müddəaları əhatə etməlidir. Bu iki yanaşma birlikdə, xəstəliklərin qəsdən yayılması vasitəsilə qorxu və təlaş, xəsarət və ölüm yaya biləcək şəxslərə qarşı güclü maneə təşkil edir.

Nümunəvi Akt formasının A hissəsi qısa giriş hissəsindən ibarətdir və qanunvericilikdə xüsusi mənaya malik olan terminlər müəyyənləşdirir. B hissəsi bioloji vasitələrdən və toksinlərdən xəsarət yetirmək və ya öldürmək məqsədilə istifadə edən qeyri-dövlət subyektlərinin qanunla cəzalandırılan cinayət törətdiyini təsbit edir. Bölmə 5, xüsusilə, bioloji silahlarla əlaqədar fəaliyyətləri, patogenlərin qəsdən yayılmasını özündə ehtiva edən terrorçuluq aktlarını, həmçinin nəzarət edilən bioloji vasitələri və toksinləri özündə ehtiva edən bəzi fəaliyyətləri, o cümlədən lazımi şəkildə əldə edilmiş müvafiq icazə olmadan onların ölkədaxili və beynəlxalq daşınmasını qadağan edir. Bölmə 6 təsdiq edir ki, patogenlər vasitəsilə xəsarət yetirməyə və ya öldürməyə istənilən hazırlıq, o cümlədən belə əməllərə cəhdlər, yardım, belə əməlləri maliyyələşdirmə və ya belə əməllər törətməklə hədələmə qanunla cəzalandırılmalı olan cinayətlərdir.

Nümunəvi Akt formasının C hissəsi bioloji və toksin silahların yayılmasının qarşısının alınması üçün möhkəm və hərtərəfli sistem, o cümlədən biotəhlükəsizlik tədbirləri müəyyənləşdirir. Bölmə 9 və 10 bioloji vasitələrin və toksinlərin, həmçinin avadanlıq və texnologiyanın siyahılarının müəyyənləşdirilməsi vasitəsilə önləyici tədbirlərin əsasını təşkil edir ki, onlara dövlətlər nəzarət sistemi vasitəsilə nəzarət etməyi arzu edə bilərlər. 11-14-cü bölmələr nəzarət edilən vasitələr və toksinlərlə əlaqədar fəaliyyətlərin lisenziyalaşdırılması, beynəlxalq daşınmaların qeydə alınması, nəzarət edilən vasitələrin və toksinlərin, yaxud avadanlıq və ya texnologiyanın beynəlxalq daşınmaları üçün idxal/ixrac icazələri, həmçinin bu maddələri daşımaq üçün təsdiq edilmiş yükdaşıyan şirkətlərə ciddi nəzarət vasitəsilə önləyici şəbəkə formalaşdırır.

D hissəsi 15-ci və 16-cı bölmələrdə göstərilən iki planlaşdırılmış orqan vasitəsilə icra və nəzarətə dəstək göstərir. Onlardan birincisi ümumi siyasətin koordinasiyasına, həmçinin müvafiq qanunvericiliyin və hər hansı qaydaların milli səviyyədə icrasına nəzarətə məsul idarələrarası orqan olan Məsul Orqandır. Onlardan ikincisi isə xəstəliklərin təbii şəkildə, təsadüfi və ya qəsdən yayılması hallarında səhiyyə və hüquq-mühafizə orqanlarının cavab tədbirlərini koordinasiya etməyə məsul olan Bioloji Xarakterli Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması və Araşdırmalara Dəstək Sistemidir (BERISS). Hissə D həmçinin lisenziya almış fiziki şəxslərin, hüquqi şəxslərin və yükdaşıyanların 17 və 18-ci bölmələrdə göstərilmiş hesabatvermə tələblərinə və imkanların yoxlanılması şərtlərinə əməl etmələrini tələb edir və 22-ci bölmədə göstərilmiş müvafiq qanunvericiliyin güman edilən pozulmalarının xüsusi təlim keçmiş hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən araşdırılmasından bəhs edir. Bölmə 26 B, C və D hissələrində göstərilmiş qanun pozuntuları üçün müəyyənləşdirilmiş cəzalar haqqında məlumatı özündə əks etdirir. Bölmə 27 və 28 hüquqi əməkdaşlığa, həmçinin digər dövlətlər və beynəlxalq təşkilatlar

tərəfindən yardıma dair yurisdiksiya və metodlar müəyyənləşdirir. Son olaraq, E hissəsi Məsul Orqana və ya müvafiq nazirə qanunvericiliyə uyğun olaraq, zəruri qaydalar hazırlama imkanı verir.

**VERTIC (www.vertic.org) tələb olunan hallarda milli səviyyədə icraya dair qanunvericiliyin hazırlanmasına (o cümlədən paytaxt şəhərlərində) kömək etmək imkanındadır. Bu xidmət pulsuzdur.** Daha ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, VERTIC ilə əlaqə saxlayasınız.

Tədqiqat, Təlim və İnformasiya Mərkəzi (VERTIC)
Development House, 56-64 Leonard Street, London EC2A 4LT, Böyük Britaniya
Telefon: +44 (0) 20 7065 0880, Faks: +44 (0) 20 7065 0890
e-poçt: NIM [at] vertic.org
Veb-sayt: www.vertic.org

*VERTIC Böyük Britaniyanın London şəhərində yerləşən müstəqil qeyri-kommersiya və qeyri-hökumət təşkilatıdır. VERTIC beynəlxalq sazişlərin həyata keçirilməsinə inamı təmin edən vasitə olaraq,effektiv və səmərəli araşdırmalara kömək edir.*

*VERTIC-in Milli İcra Tədbirləri (NIM) Proqramı dövlətlərə nüvə, kimyəvi və bioloji silahlara dair çoxsaylı sazişlər və BMT-nin Təhlükəsizlik Şurasının qərarları ilə müəyyənləşdirilmiş öhdəliklərə əməl etmək üçün milli səviyyədə hansı tədbirlərin tələb edildiyini və onların necə həyata keçirilməli olduğunu başa düşməkdə kömək edir.*

*VERTIC Kanada (Qlobal Tərəfdaşlıq Proqramı, DFAIT) və Böyük Britaniya (Strateji Proqram Fondu, FCO) hökumətlərinə bu proqrama maliyyə formasında və natural formada göstərdikləri köməyə görə öz təşəkkürünü bildirmək istəyir. VERTIC tərəfindən ifadə olunmuş fikirlər heç də mütləq olaraq həmin hökumətlərin və ya dövlət orqanlarının mövqelərini əks etdirmir.*

*Baxmayaraq ki, bu nümunəvi Akt formasının hazırlanması üçün hər bir iş görülmüşdür, bununla belə, VERTIC ondan hər hansı formada istifadə edilməsindən irəli gələ biləcək heç bir məsuliyyəti öz üzərinə götürmür. Nəzərimizə çatdıracağınız bütün səhvlərə görə VERTIC sizə minnətdar olardı.*

Versiya: Fevral 2012

**Bakterioloji (bioloji) və toksin silahlar haqqında 1972-ci il tarixli Konvensiyanın və BMT-nin Təhlükəsizlik Şurasının [İL] tarixli 1540 saylı Qərarının müvafiq tələblərinin yerinə yetirilməsinə dair [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN]**

**[ÖLKƏNİN ADI]-nin [PARLAMENTİ, MİLLİ ŞURASI] tərəfindən qəbul edilmiş və [TARİX]-də [HÖKUMƏT BAŞÇISI, DÖVLƏT BAŞÇISI] tərəfindən imzalanmışdır.**

# BÖLMƏLƏRİN STRUKTURU

**HİSSƏ A.** GİRİŞ
1. Qısa giriş
2. Məqsəd
3. Dövlətin üzərinə öhdəlik qoyan [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN]
4. İzah

**HİSSƏ B.** QADAĞALAR
5. Bioloji vasitələrdən və toksinlərdən qanunsuz istifadə
6. Alternativ cinayət məsuliyyəti
7. Rəsmi şəxslərin müdafiəsinə haqq qazandırılmaması

**HİSSƏ C.** BİOLOJİ TƏHLÜKƏSİZLİK
8. Məqsəd
9. Nəzarət edilən vasitələr və toksinlər
10. Nəzarət edilən avadanlıq və texnologiya
11. Nəzarət edilən vasitələr və toksinlər üçün lisenziya verilməsi
12. Nəzarət edilən vasitələrin və toksinlərin ölkə daxilində bir şəxsdən digərinə ötürülməsinə nəzarət
13. Beynəlxalq miqyasda bir şəxsdən digərinə ötürülməyə nəzarət
14. Nəzarət edilən vasitələrin və toksinlərin daşınması

**HİSSƏ D.** QANUNLARIN YERİNƏ YETİRİLMƏSİNƏ NƏZARƏT
15. [MƏSUL ORQANIN] yaradılması, mandatı və qanunların yerinə yetirilməsinə nəzarətlə bağlı səlahiyyətləri
16. [[ÖLKƏNİN ADI]-nin Bioloji Xarakterli Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması və Araşdırmalara Dəstək Sisteminin (BERISS)] yaradılması
17. Sənədləşdirmə, hesabatvermə və müvafiq qanun pozuntuları
18. Yoxlamalar
19. Müfəttişlərin öhdəlikləri
20. Təftiş aparılan obyektlərə/ ərazilərə nəzarət edən şəxslərin öhdəlikləri və müvafiq qanun pozuntuları
21. Təhlükəsizlik tədbirləri tələb edən göstərişlər və müvafiq qanun pozuntusu
22. Yoxlamalar
23. Müsadirə, mülkiyyət hüquqlarından məhrum etmə və məhv etmə
24. Məhkəmə qərarları
25. Davam edən qanun pozuntusu
26. Cinayət məsuliyyəti və mülki məsuliyyət
27. Tətbiq etmə
28. Hüquq sahəsində əməkdaşlıq və yardım

**HİSSƏ E.** Qaydalar
29. Qaydalar

# HİSSƏ A. GİRİŞ

## 1. Qısa giriş

Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] BİOLOJİ VƏ TOKSİN SİLAHLAR HAQQINDA KONVENSİYANIN HƏYATA KEÇİRİLMƏSİNƏ DAİR [İL] tarixli [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] kimi istinad edilə bilər.

## 2. Məqsəd

Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] məqsədi bioloji vasitələrdən və toksinlərdən qanunsuz istifadəni qadağan etməklə, biotəhlükəsizliyə kömək etməklə, həmçinin bioloji və toksin silahların yayılmasının qarşısını almaq üçün [ÖLKƏNİN ADI]-nin öz öhdəliklərini yerinə yetirməsinə imkan yaratmaqla 1972-ci il tarixli Bioloji və toksin silahlar haqqında Konvensiyanın və BMT-nin Təhlükəsizlik Şurasının 1540 saylı Qərarının bioloji silahlarla əlaqədar müddəalarının həyata keçirilməsindən ibarətdir. B hissəsində bioloji vasitələrdən və toksinlərdən qanunsuz istifadəyə, həmçinin onlarla əlaqəli qanun pozuntularına qadağalar müəyyənləşdirilir. C hissəsi bəzi bioloji vasitələrə, toksinlərə, avadanlıq və texnologiyaya, həmçinin müvafiq qanun pozuntularına nəzarətdən bəhs edir. D hissəsində cəzalardan və bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] icrasına nəzarətdən bəhs edilir. E hissəsi bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun qaydalar haqqında danışılır.

## 3. Dövlətin üzərinə öhdəlik qoyan [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN]

Bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] [ÖLKƏNİN ADI] üçün öhdəlik müəyyənləşdirir.

## 4. İzah

(1) Bu [AKTDA, ƏSASNAMƏDƏ, QƏRARDA, QANUNDA] –

- (a) “Bioloji və ya toksin silah” dedikdə, aşağıdakılar nəzərdə tutulur:
    - i. mikrobial və ya digər bioloji vasitələr, yaxud toksinlər, onların mənşəyi və ya hazırlanma metodu , həmçinin onların profilaktik, qoruyucu və ya digər dinc məqsədlər üçün istifadəsinə icazə verilməyən növləri və miqdarları;
    - ii. bu cür vasitələdən və ya toksinlərdən bədxah məqsədlər üçün və ya silahlı münaqişədə istifadə etmək üçün hazırlanan silahlar, avadanlıq və ya hazırlıq vasitələri;
- (b) “Nəzarət edilən vasitələr və toksinlər” və “nəzarət edilən vasitələrin və toksinlərin siyahısı” dedikdə, bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 9-cu bölməsində onların hər biri üçün müəyyənləşdirilmiş məna nəzərdə tutulur;
- (c) “Nəzarət edilən avadanlıq və texnologiya” və “nəzarət edilən avadanlıq və texnologiyaların siyahısı” dedikdə, onların hər biri üçün bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 10-cu bölməsində müəyyənləşdirilmiş məna nəzərdə tutulur;
- (d) “Hüquqi şəxs” dedikdə, hər hansı dövlət orqanı, akademik institut, korporasiya, şirkət, cəmiyyət, birlik, firma, təkbaşçı müəssisə və ya digər hüquqi şəxs başa düşülür;

(e) “Şəxs” dedikdə, hər hansı fiziki şəxs və ya cinayət məsuliyyəti ilə əlaqədar yerli qanunvericiliyə uyğun dərəcədə hər hansı hüquqi şəxs başa düşülür;
(f) “Məsul orqan” dedikdə, bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 15-ci bölməsinə əsasən yaradılmış orqan nəzərdə tutulur;
(g) “Ərazi” dedikdə, [ÖLKƏNİN ADI]-nin daxilində, yaxud onun yurisdiksiyası və ya nəzarəti altında olan istənilən ərazi nəzərdə tutulur.

(2) [MƏSUL ORQAN] bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] məqsədləri üçün,“bioloji vasitə”, “toksin”, “avadanlıq” və “texnologiyalar”ı müəyyən edən qaydalar hazırlaya bilər.

## HİSSƏ B. QADAĞALAR

**5. Bioloji vasitələrdən və toksinlərdən qanunsuz istifadə**

(1) Aşağıdakı əməllərə qəsdən yol verən hər hansı bir şəxs cinayət törətmiş olur:

(a) hər hansı bioloji və ya toksin silahı hazırlama, istehsal etmə, başqa yolla əldə etmə, ehtiyatda saxlama, mülkiyyətinə daxil edən, nəqliyyatla daşıma, saxlama, yaxud hər hansı bioloji və ya toksin silahı birbaşa və ya dolayı yolla hər hansı bir şəxsə ötürmə;
(b) hər hansı bioloji və ya toksin silahdan istifadə etmə;
(c) hər hansı bioloji və ya toksin silahdan istifadə etməyə hazırlıq görmə;
(d) bioloji və ya toksin silahların istehsalı üçün nəzərdə tutulan hər hansı ərazini tikmə, əldə etmə və ya saxlama;
(e) hər hansı bioloji vasitəni və ya toksini silaha çevirmə.

(2) Siyasi və ya sosial məqsədlərə kömək etməkdən ötrü hər hansı bir hökuməti və ya mülki əhalini qorxutmaq və ya məcbur etmək məqsədilə bioloji vasitələri və ya toksinləri insanlara, heyvanlara və ya bitkilərə xəsarət yetirmək üçün qəsdən buraxan hər hansı bir şəxs cinayət törətmiş olur.

(3) Aşağıdakı əməllərə yol verən hər hansı bir şəxs cinayət törətmiş olur:

(a) nəzarət edilən vasitələri və ya toksinləri aşağıdakı qaydada hazırlama, əldə etmə, istehsal etmə, mülkiyyətə daxil etmə, saxlama, nəqliyyatla daşıma, başqalarına ötürmə və ya istifadə etmə –
    i. [MƏSUL ORQAN] tərəfindən bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 11-ci bölməsinə uyğun olaraq verilmiş lisenziya olmadan;
    ii. in violation of the conditions of a license granted by the [MƏSUL ORQAN] tərəfindən bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 11-ci bölməsinə uyğun olaraq verilmiş lisenziyanın şərtləri pozulmaqla;
    iii. bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 11-ci bölməsinin hər hansı digər müddəası pozulmaqla;
(b) bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 12-ci bölməsinə uyğun olaraq müvafiq lisenziya əldə etmədən nəzarət edilən vasitələri və ya toksinləri [ÖLKƏNİN ADI]-nin ərazisində fiziki və ya hüquqi şəxslərə ötürmə və ya belə ötürmə barədə [MƏSUL ORQANI] xəbərdar etməmə;

(c) nəzarət edilən hər hansı vasitəni və ya toksini, yaxud nəzarət edilən hər hansı avadanlıq və ya texnologiyanı [ÖLKƏNİN ADI]-nin ərazisi vasitəsilə idxal etmə, ixrac etmə, təkrar ixrac etmə və ya bir nəqlliyat vasitəsindən digərinə yükləmə –
    i. onların başqa şəxslərə ötürülməsi üçün bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 13-cü bölməsinə uyğun şəkildə verilmiş icazə olmadan;
    ii. bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 13-cü bölməsinə uyğun istehlakçı sertifikatı olmadan;
(d) nəzarət edilən vasitələri və ya toksinləri təsdiq edilmiş yükdaşıyan şirkət vasitəsilə ölkə daxilində və ya beynəlxalq miqyasda daşıma şərtinə və ya 14-cü bölmənin hər hansı digər şərtinə əməl etməmə;
(e) bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və ya onun əsasında hazırlanmış hər hansı qaydalara, yaxud hər hansı digər [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun hallar istisna olmaqla, nəzarət edilən hər hansı vasitənin və ya toksinin istehsalı, yaxud onlara dair dair tədqiqat aparmaq üçün hazırlanmış və ya nəzərdə tutulmuş hər hansı ərazi tikmə, əldə etmə və ya saxlama;
(f) içərisində nəzarət edilən vasitələr və ya toksinlər olan hər hansı ərazini, konteyneri və ya nüvə reaktorundan müdafiə örtüyünü həmin vasitələri və ya toksinləri çıxarmaq məqsədilə korlama;
(g) nəzarət edilən vasitələri və ya toksinləri hər hansı bir ərazidən və ya icazə verilmiş nəqliyyat vasitəsindən başqa yerə daşıma və ya oğurlama, yaxud içərisində nəzarət edilən vasitələr və ya toksinlər olan hər hansı bir icazəli nəqliyyat vasitəsindən istifadə və ya belə nəqliyyat vasitəsinə nəzarəti ələ keçirmə (həmin nəzarət edilən vasitələrin və ya toksinlərin çıxarılmasına nail olmaq məqsədilə).

**6. Alternativ cinayət məsuliyyəti**

Aşağıdakı əməllərə yol verən hər hansı bir şəxs cinayət törətmiş olur –

(a) istənilən üsulla hər hansı bir şəxsə 5-ci bölmədəki qadağan edilmiş hər hansı fəaliyyətlə məşğul olmaqda kömək etmə, həmin şəxsi təşviq və ya təhrik etmə;
(b) 5-ci bölmədəki qadağan edilmiş fəaliyyətlərdən hər hansı biri ilə məşğul olması üçün hər hansı bir şəxsə göstəriş və ya istiqamət vermə;
(c) 5-ci bölmədəki qadağan edilmiş fəaliyyətlərdən hər hansı birini törətməyə cəhd etmə;
(d) 5-ci bölmədəki qadağan edilmiş fəaliyyətlərdən hər hansı birini törətməklə hədələmə;
(e) 5-ci bölmədəki qadağan edilmiş fəaliyyətlərdən hər hansı birində iştirak etmə və ya belə fəaliyyəti maliyyələşdirmə.

**7. Rəsmi şəxslərin müdafiəsinə haqq qazandırılmaması**

Bu Hissədə göstərilmiş cinayətlərdən hər hansı birini törətməkdə təqsirləndirilən hər hansı bir şəxsin rəsmi səlahiyyətlərlə, öz rəisinin əmr və ya təlimatları əsasında və ya əks halda, ölkənin qanunlarına uyğun olaraq fəaliyyət göstərmiş olması onun cinayətinə haqq qazandırmır.

## **HİSSƏ C.** BİOLOJİ TƏHLÜKƏSİZLİK

**8. Məqsəd**

Hissə C bəzi bioloji vasitələrin və toksinlərin hazırlanmasını, əldə edilməsini, istehsalını, mülkiyyətə daxil edilməsini, nəqliyyatla daşınmasını, saxlanmasını, başqalarına ötürülməsini və ya istifadəsini, həmçinin bəzi ikitəyinatlı bioloji avadanlıq və texnologiyaların bir şəxsdən başqalarına ötürülməsini tənzimləyir. Hissə C-nin məqsədi bu cür vasitələrə, toksinlərə, avadanlıq və texnologiyaya [ÖLKƏNİN ADI]-də etibarlı və təhlükəsiz şəkildə nəzarəti təmin etməkdir. Xüsusilə, bu Hissə və onun həyata keçirilməli olan qaydaları nəzarət edilən vasitələrin və toksinlərin.oğurlanmasının, zərərə məruz qalmasının, başqalarına ötürülməsinin, qanunsuz alqı-satqısının və ya digər qeyri-düzgün formada istifadəyə buraxılmasının qarşısını almağı nəzərdə tutur.

## 9. Nəzarət edilən vasitələr və toksinlər[1]

*Variant 1:* [(1) [MƏSUL ORQAN] aşağıdakı meyarlar əsasında ictimai sağlamlığa və milli təhlükəsizliyə ciddi təhlükə yaradan bioloji vasitələrin və toksinlərin siyahısını hazırlamalı və mühafizə etməlidir:

(a) insanların, heyvanların və ya bitkilərin sağlamlığına, yaxud heyvan və ya bitki məhsullarına təsir effekti;
(b) zərərlilik dərəcəsi və ötürmə metodu;
(c) farmokoterapiya və immunizasiyanın mövcudluğu və effektivliyi;
(d) müvafiq hesab edilən digər meyarlar (əgər varsa), bu şərtlə ki [MƏSUL ORQAN] bu cür meyarlardan hər hansı istifadəni ictimai şəkildə açıqlasın və izah etsin.

(2) Bu bölməyə uyğun olaraq hazırlanmış siyahıdakı bioloji vasitələr və toksinlər "nəzarət edilən vasitələr və/və ya toksinlər", bu cür vasitələrin və toksinlərin siyahısı isə "nəzarət edilən vasitələrin və toksinlərin siyahısı" adlandırılmalıdır. Nəzarət edilən vasitələrin və toksinlərin siyahısı bu bölməyə uyğun olaraq hazırlanmış qaydalara daxil edilməli və lazım olduğu təqdirdə, [MƏSUL ORQAN] tərəfindən mütəmadi olaraq nəzərdən keçirilməli və yenilənməlidir.]

*Variant 2:* [(1) [MƏSUL ORQAN] infeksion mikroorqanizmlərin Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən risk qruplarına görə hazırlanmış təsnifatı əsasında bioloji vasitələrin və toksinlərin siyahısını hazırlamalı və mühafizə etməlidir.[2] Bu siyahı və onu hazırlamaq üçün istifadə edilmiş qaydalar bu bölməyə uyğun olaraq hazırlanmış qaydalara daxil edilməli və lazım olduğu təqdirdə, [MƏSUL ORQAN] tərəfindən mütəmadi olaraq nəzərdən keçirilməli və yenilənməlidir.

---

[1] Bu nümunəvi Akt formasında [MƏSUL ORQAN] tərəfindən lisenziyalaşdırma, hesabatvermə və yoxlama rejimləri vasitəsilə nəzarət altında saxlanacaq bioloji vasitələrin və toksinlərin siyahısını hazırlamaq üçün iki variant göstərilmişdir: ictimai sağlamlıq və milli təhlükəsizlik üçün təhlükə ilə əlaqədar meyarlara əsaslanan siyahı; və ya Ümumdünya Səhiyyə Təşkilatının dörd risk qrupu təsnifatına əsaslanan siyahı. Mövcud siyahıların nümunələrini müraciət əsasında əldə etmək mümkündür.

[2] Laborator Biotəhlükəsizliyə dair Təlimat (Üçüncü buraxılış), Ümumdünya Səhiyyə Təşkilatı, 2004. Qaydalar aşağıdakılardan ibarətdir:
*Risk Qrupu 1* (heç bir fərdi və ictimai riskin olmaması və ya belə risklərin az olması): İnsan və ya heyvan xəstəliyi törətməsi ehtimalı olmayan mikroorqanizm.
*Risk Qrupu 2* (orta səviyyədə fərdi risk, aşağı səviyyədə ictimai risk): İnsan və ya heyvan xəstəliyi törətməsi mümkün olan, lakin laboratoriyalarda çalışan işçilər, cəmiyyət, mal-qara və ya ətraf mühit üçün ciddi təhlükə törətmək ehtimalı olmayan patogen. Laboratoriya təsirləri ciddi infeksiyaya səbəb ola bilər, lakin effektiv müalicə və preventiv tədbirlər mövcuddur və infeksiyanın yayılması riski məhduddur.
*Risk Qrupu 3* (yüksək fərdi risk, aşağı səviyyədə ictimai risk): Adətən, ciddi insan və ya heyvan xəstəliyinə səbəb olan, lakin adətən, infeksiyaya yoluxmuş bir fərddən digərinə keçməyən patogen. Effektiv müalicə və preventiv tədbirlər mövcuddur.
*Risk Qrupu 4* (yüksək fərdi və ictimai risk): Adətən, ciddi insan və ya heyvan xəstəliyinə səbəb olan və bir fərddən digərinə, birbaşa və ya dolayı ötürülməyə hazır vəziyyətdə ola biləcək patogen. Effektiv və preventiv tədbirlər, adətən, mövcud deyildir.

(2) Bu bölməyə əsasən hazırlanmış siyahıdakı [1,] [2,] [3,] [və] [4]-cü Risk Qruplarına daxil olan bioloji vasitələr və toksinlər "nəzarət edilən vasitələr və/və ya toksinlər", bu cür vasitələrin və toksinlərin siyahısı isə "nəzarət edilən vasitələrin və toksinlərin siyahısı" adlandırılmalıdır.

## 10. Nəzarət edilən avadanlıq və texnologiya

(1) [MƏSUL ORQAN] ikitəyinatlı bioloji avadanlıq və texnologiyanın siyahısını[3] hazırlamalı və mühafizə etməlidir.

(2) Bu bölməyə əsasən hazırlanmış siyahıdakı ikitəyinatlı bioloji avadanlıq və texnologiya "nəzarət edilən avadanlıq və/və ya texnologiya", bu cür avadanlıq və texnologiyanın siyahısı isə "nəzarət edilən avadanlıq və texnologiyanın siyahısı" adlandırılmalıdır. Nəzarət edilən avadanlıq və texnologiyanın siyahısı bu bölməyə uyğun olaraq hazırlanmış qaydalara daxil edilməli, həmçinin lazım olduğu təqdirdə, [MƏSUL ORQAN] tərəfindən mütəmadi olaraq nəzərdən keçirilməli və yenilənməlidir.

## 11. Nəzarət edilən vasitələr və toksinlər üçün lisenziyanın verilməsi

*Lisenziya verilməsi*
(1) Nəzarət edilən vasitələri və ya toksinləri hazırlayan, əldə edən, istehsal edən, mülkiyyətinə daxil edən, saxlayan, nəqliyyatla daşıyan, başqalarına ötürən və ya istifadə edən hər bir fiziki və ya hüquqi şəxs bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA]uyğun olaraq hazırlanmış qaydalara əsasən, [MƏSUL ORQAN] tərəfindən verilmiş lisenziyaya sahib olmalıdır. Həmin qaydalar bu bölməyə əsasən lisenziya əldə edən fiziki və hüquqi şəxslərin bu cür nəzarət edilən vasitələri və ya toksinləri hazırlamaq, əldə etmək, istehsal etmək, mülkiyyətinə daxil etmək, saxlamaq, nəqliyyatla, başqalarına ötürmək və ya istifadə etmək üçün qanuni məqsədə malik olması tələbini müəyyənləşdirməlidir.

(2) Bu bölməyə uyğun olaraq verilmiş lisenziyada fiziki və ya hüquqi şəxsin hazırlamasına, əldə etməsinə, istehsal etməsinə, mülkiyyətinə daxil etməsinə, saxlamasına, nəqliyyatla daşımasına, başqa şəxslərə ötürməsinə və ya istifadə etməsinə icazə verilən nəzarət edilən vasitə və ya toksinlərin hər birinin adı göstərilməlidir.

(3) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq hazırlanan qaydalarda hər hansı bir lisenziyanın müvafiq hallarda [MƏSUL ORQAN] tərəfindən ləğv edilməsi, o cümlədən bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] hər hansı pozulması halları göstərilməlidir.

(4) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən hazırlanmış qaydalarda adları göstərilən qeyri-qanuni fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə [MƏSUL ORQAN] tərəfindən lisenziya verilmir.

*Lisenziya alınmasının tələb edilmədiyi hallar*
(5) Bu bölməyə uyğun olaraq, [MƏSUL ORQAN] yalnız səhiyyə və kənd təsərrüfatı sahələrində fövqəladə hallar yarandıqda, mühüm məqsədlər üçün tələb edildikdə, həmçinin ərzaq, dərman vasitələri, kosmetika,cücü və həşəratları məhv etmək üçün vasitələrlə əlaqədar qanunlara və ya

[3] Mövcud siyahıların nümunələrini müraciət əsasında əldə etmək olar.

oxşar qanunlara uyğun olaraq lisenziyalaşdırılmış məhsullar üçün fiziki və ya hüquqi şəxsi lisenziya almaqdan azad edə bilər.

*Hüquqi şəxslər üçün lisenziyalar və onlara əməl edilməsinə nəzarət üzrə məsul şəxs*
(6) Hər hansı bir hüquqi şəxs tərəfindən lisenziya əldə etmək məqsədilə təqdim edilmiş ərizədə həmin hüquqi şəxsin mülkiyyət formasına və idarəçiliyinə dair informasiya göstərilməlidir. Bu bölməyə uyğun olaraq lisenziya əldə etmək istəyən hər hansı hüquqi şəxs, lisenziyanın təsdiq edilməsi üçün tələb edilən şərt kimi, bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və onun əsasında hazırlanmış qaydalara uyğunluğu təmin etmək üçün öz obyektlərinin hər birində bir nəfər şəxsi "Normalara əməl edilməsinə nəzarət üzrə məsul şəxs" qismində müəyyənləşdirməli, təyin etməli və bu barədə [MƏSUL ORQANA] məlumat verməlidir. Normalara əməl edilməsinə nəzarət üzrə məsul şəxsə bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və onun əsasında hazırlanmış qaydalara əməl edilməsinə diqqət göstərən obyektin adından fəaliyyət göstərmək üçün müvafiq səlahiyyət verilməlidir. Həmin hüquqi şəxs bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] yerinə yetirilməsinə nəzarəti təmin etmək məqsədilə, öz obyektlərinin Normalara əməl edilməsinə nəzarət üzrə məsul şəxsləri ilə [MƏSUL ORQAN] arasında əlaqə yaratmalıdır və bu qaydalara əsasən tələb edilə biləcək digər bu kimi vəzifələr daşımalıdır.

(7) Bu bölməyə uyğun olaraq lisenziya əldə etmiş hər hansı bir hüquqi şəxs bu bölməyə uyğun olaraq lisenziya əldə etmiş fiziki şəxslərin nəzarət edilən vasitələri və ya toksinləri yalnız nəzarət edilən vasitələri və ya toksinləri hazırlamaq, əldə etmək, istehsal etmək, mülkiyyətə daxil etmək, saxlamaq, nəqliyyatla daşımaq, başqalarına ötürmək və ya istifadə etmək üçün əldə etməsinə icazə verə bilərlər.

*Obyektlər barədə məlumat verilməsi*
(8) Hüquqi şəxs özünün nəzarət edilən vasitələri və ya toksinləri hazırlayan, əldə edən, istehsal edən, mülkiyyətinə daxil edən, saxlayan, nəqliyyatla daşıyan, başqalarına ötürən və ya istifadə edən obyektləri və həmin obyektlərdə çalışan lisenziyalı fiziki şəxslər haqqında [MƏSUL ORQANA] məlumat verməlidir. [MƏSUL ORQANA] məlum edilən obyektlər "məlum edilmiş obyektlər" adlandırılır.

*Hüquqi şəxslər üçün lisenziya, biotəhlükəsizlik*
(9) (a) Bu bölməyə əsasən lisenziya əldə etmək istəyən hər bir hüquqi şəxs, təsdiq edilmə üçün tələb edilən şərt kimi, lisenziyası olmayan fiziki şəxslərin nəzarət edilən vasitələri və ya toksinləri əldə etməsinin qarşısını almaq məqsədilə öz məlum edilmiş obyektlərinin bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA][4] uyğun olaraq hazırlanmış biotəhlükəsizlik qaydalarına uyğun fəaliyyət göstərdiyini təsdiq etməlidir. Qaydalar nəzarət edilən vasitələrin və toksinlərin hazırlandığı, əldə edildiyi, istehsal edildiyi, mülkiyyətə daxil edildiyi, saxlandığı, nəqliyyatla daşındığı, başqalarına ötürüldüyü və ya istifadə edildiyi obyektlər üçün fiziki mühafizə tədbirləri, o cümlədən fiziki və işçilərin təhlükəsizliyi üzrə planlar müəyyənləşdirməlidir. Qaydalarda nəzarət edilən vasitələrin və ya toksinlərin hazırlandığı, əldə edildiyi, istehsal edildiyi, mülkiyyətə daxil edildiyi, saxlandığı, nəqliyyatla daşındığı, başqalarına ötürüldüyü və ya istifadə edildiyi obyektlərdə çalışan fiziki şəxslərin etibarlılığını təmin etmək üçün işçilərin təhlükəsizlik vəziyyətinin yoxlanması tələbi müəyyənləşdirilməlidir. Fiziki təhlükəsizliyə və işçilərin təhlükəsizliyinə dair tələblər nəzarət edilən vasitələrin və toksinlərin ictimai sağlamlıq və təhlükəsizlik üçün yaratdığı riskə uyğun şəkildə müəyyənləşdirilməlidir.

---

[4] Dövlətlər bu qaydaları Ümumdünya Səhiyyə Təşkilatının 2004-cü il tarixli Laboratoriyaların Biotəhlükəsizliyinə dair Təlimatına (Üçüncü buraxılış) uyğun şəkildə hazırlamağı nəzərdən keçirmək istəyə bilərlər.

(b) Bu bölməyə uyğun olaraq lisenziya əldə etmək istəyən hər bir hüquqi şəxs, təsdiq edilmə üçün müəyyənləşdirilmiş tələb kimi, həmçinin nəzarət edilən vasitələrə və toksinlərə təsadüfi təsirin, yaxud onların təsadüfən azad olmasının qarşısını almaq məqsədilə, özünün məlum edilmiş obyektlərinin bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən hazırlanmış biotəhlükəsizlik qaydalarına[5] uyğun olaraq fəaliyyət göstərdiyini təsdiq etməlidir.

*[MƏSUL ORQAN] tərəfindən sənədləşdirilmə*
(10) [MƏSUL ORQAN] bu bölməyə uyğun olaraq shall maintain an accurate and current record of lisenziya verilmiş bütün fiziki və hüquqi şəxslərə, həmçinin məlum edilmiş obyektlərə dair dəqiq və cari sənədləşdirilmə aparmalıdır. Belə sənədləşdirməyə həmçinin lisenziya almış fiziki və hüquqi şəxslərin, məlum edilmiş obyektlərin adları və yerləri, nəzarət edilən vasitələri və ya toksinləri hazırlamaq, əldə etmək, istehsal etmək, mülkiyyətə daxil etmək, saxlamaq, nəqliyyatla daşımaq, başqalarına ötürmək və ya istifadə etmək üçün lisenziya əldə etmiş hər bir fiziki və ya hüquqi şəxs haqqında məlumat daxil edilməlidir.

*Oğurluq, zərər və ictimai buraxılmaya dair məlumat*
(11) Bu bölməyə uyğun olaraq lisenziya əldə etmiş fiziki və hüquqi şəxslər (və onların məlum edilmiş obyektləri) [MƏSUL ORQANI], [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINI] və [[ÖLKƏNİN ADI]-nin Bioloji Xarakterli Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması və Araşdırmalara Dəstək Sistemini (BERISS)] nəzarət edilən vasitələrin və ya toksinlərin oğurlanması, zərərə məruz qalması və ya ictimai buraxılması barədə dərhal məlumatlandırmalıdırlar. Lisenziya verilən hüquqi şəxslər oğurluq, zərər və ya ictimai buraxılma hallarına dair məlumatların özlərinin məlum edilmiş obyektləri tərəfindən verilməsinə prosedurlar müəyyənləşdirə bilərlər.

*Özündə nəzarət edilməyən vasitələr və toksinlər ehtiva edən fəaliyyətlər üzrə risklərin qiymətləndirilməsi*
(12) Bununla belə, bu hissənin 1-ci bölməsi nəzarət edilməyən vasitələri və ya toksinləri hazırlayan, əldə edən, istehsal edən, mülkiyyətinə daxil edən, saxlayan, nəqliyyatla daşıyan, başqalarına ötürən və ya istifadə edən istənilən fiziki və hüquqi şəxsin, yaxud obyektin həyata keçirdiyi və məntiqi olaraq, ictimai sağlamlığa və milli təhlükəsizliyə təhlükə törədə biləcəyini güman etdiyi hər bir fəaliyyət üzrə bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq hazırlanmış qaydalarda göstərilmiş şəkildə risk analizi hazırlaması tələbini müəyyənləşdirir. Risklərin həmin analizi qaydalarda müəyyənləşdirilmiş müddətdə [MƏSUL ORQANA] təqdim edilməlidir.

## 12. Nəzarət edilən vasitələrin və toksinlərin ölkə daxilində bir şəxsdən digərinə ötürülməsinə nəzarət

(1) Nəzarət edilən vasitələr və toksinlər yalnız shall only be transferred within the territory of [ÖLKƏNİN ADI]-nin ərazisində, bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və onun əsasında hazırlanmış hər hansı qaydalara uyğun olaraq lisenziya verilmiş fiziki və hüquqi şəxslər (və onların məlum edilmiş obyektləri) arasında ötürülə bilər.

(2) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən hazırlanmış qaydalara uyğun olaraq, nəzarət edilən vasitələrin və toksinlərin [ÖLKƏNİN ADI]-nin ərazisində bütün planlaşdırılan ötürülmələri barədə [MƏSUL ORQANA] əvvəlcədən xəbər verilməlidir.

[5] Dövlətlər bu qaydaları Ümumdünya Səhiyyə Təşkilatının 2004-cü il tarixli Laboratoriyaların Biotəhlükəsizliyinə dair Təlimatına (Üçüncü buraxılış) uyğun şəkildə hazırlamağı nəzərdən keçirmək istəyə bilərlər.

(3) [MƏSUL ORQAN] tərəfindən hazırlanan qaydalarda ötürülmələr üçün əlavə texniki və təhlükəsizlik tələbləri, o cümlədən nəzarət edilən vasitələrə və toksinlərə nəzarət edilməsi və ötürülmələrin göndərildiyi şəxs tərəfindən onların qəbulunun təsdiq edilməsi üçün müvafiq tədbirlər göstərilməlidir (nəzarət edilən vasitələr və toksinlər üçün bu cür ciddi hesabatlılığı hər zaman gözləmək üçün).

**13. Beynəlxalq miqysada bir şəxsdən digərinə ötürülməyə nəzarət**

*Nəzarət edilən vasitələrin və ya toksinlərin, yaxud nəzarət edilən avadanlıq və texnologiyanın idxalı, ixracı, təkrar ixracı və bir nəqliyyat vasitəsindən digərinə yüklənməsi*
(1) Hər hansı nəzarət edilən vasitəni və ya toksini, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanı [ÖLKƏNİN ADI]-nin ərazisi vasitəsilə idxal edən, ixrac edən, təkrar ixrac edən və ya bir nəqliyyat vasitəsindən digərinə yükləyən hər bir fiziki və ya hüquqi şəxs [MƏSUL ORQAN VƏ YA İDXAL/İXRACA NƏZARƏT ÜZRƏ MİLLİ ORQAN] tərəfindən verilən müvafiq icazə əsasında fəaliyyət göstərməlidir.

(2) [MƏSUL ORQAN VƏ YA İDXAL/İXRACA NƏZARƏT ÜZRƏ MİLLİ ORQAN] nəzarət edilən vasitələrin və ya toksinlərin, yaxud nəzarət edilən avadanlığın və ya texnologiyanın ötürülməsi üçün icazə əldə etmək üçün müvafiq tələblər və prosedurlar müəyyənləşdirən qaydalar hazırlamalıdır.

(3) Əgər [MƏSUL ORQANIN] idxal edilmiş, ixrac edilmiş, təkrar ixrac edilmiş və ya bir nəqliyyat vasitəsindən digərinə yüklənmiş nəzarət edilməyən vasitənin və ya toksinin, yaxud nəzarət edilməyən avadanlığın və ya texnologiyanın bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN], [MƏSUL ORQAN] ilə qadağan edilmiş məqsədlər üçün istifadə edilməsi ehtimalının mövcudluğunu güman etmək üçün lazımi əsası varsa, [MƏSUL ORQAN] idxalın, ixracın, təkrar ixracın və ya bir nəqliyyat vasitəsindən digərinə yükləmənin qarşısını almaq üçün müvafiq məhkəmə orqanlarından lazımi qərar əldə edə bilər.

*İxrac prosedurları*
(4) [MƏSUL ORQAN VƏ YA MİLLİ İDXAL/İXRACA NƏZARƏT ORQANI] nəzarət edilən vasitələrin və ya toksinlərin, yaxud nəzarət edilən avadanlığın və ya texnologiyanın yalnız digər dövlətlərdə yerləşən, nəzarət edilən vasitələr və ya toksinlər, yaxud nəzarət edilən avadanlıq və ya texnologiya baxımından oxşar qaydada tənzimlənən fiziki şəxslərə, hüquqi şəxslərə və ya obyektlərə ixrac edilməsini təmin etmək üçün müvafiq prosedur qaydaları qəbul edə bilər.

(5) Bu hissənin 4-cü bölməsindəki prosedurlara istehlak sertifikatı üçün ən azı aşağıdakıları əhatə etməli olan tələb daxil edilməlidir:

(a) Nəzarət edilən vasitə və ya toksindən, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyadan yalnız qanuni məqsədlər üçün istifadə ediləcəyinə dair məlumat;
(b) Nəzarət edilən vasitə və ya toksinin, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanın təkrar ötürülməyəcəyinə dair məlumat;
(c) Daşınacaq nəzarət edilən vasitənin və ya toksinin növü və miqdarı, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanın təsviri;
(d) Ötürüləcək nəzarət edilən vasitənin və ya toksinin, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanın istehlakı;
(e) İstifadəçinin (istifadəçilərin) və hər hansı vasitəçilərin ad(lar)ı və yer(lər)i.

*Tranzit*

(6) [MƏSUL ORQAN VƏ YA İDXAL/İXRACA NƏZARƏT ÜZRƏ MİLLİ ORQAN] nəzarət edilən vasitələrin və ya toksinlərin, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanın [ÖLKƏNİN ADI]-nin ərazisi vasitəsilə tranziti üçün tələblər və prosedurlar müəyyənləşdirən qaydalar hazırlamalıdır.

### 14. Nəzarət edilən vasitələrin və toksinlərin daşınması

*Yalnız təsdiq edilmiş yükdaşıyan şirkətlər tərəfindən daşınma*
(1) 12 və 13-cü bölmələrə uyğun olaraq, nəzarət edilən vasitələrin və toksinlərin ölkə daxilində və beynəlxalq miqyasda daşınması yalnız bu hissənin 2-ci bölməsinə uyğun olaraq [NƏQLİYYAT NAZİRLİYİ VƏ YA [MƏSUL ORQAN] tərəfindən təsdiq edilən yükdaşıyan şirkətlər tərəfindən həyata keçirilməlidir.

*Təsdiq edilmiş yükdaşıyan şirkətlər*
(2) [NƏQLİYYAT NAZİRLİYİ VƏ YA MƏSUL ORQAN] nəzarət edilən vasitələri və toksinləri ölkə daxilində və beynəlxalq miqyasda daşımaq üçün təsdiq edilmiş yükdaşıyan şirkətlərin siyahısını hazırlamalıdır. Siyahıya yalnız elə yükdaşıyan şirkətlər daxil edilməlidir ki, [NƏQLİYYAT NAZİRLİYİNƏ VƏ YA MƏSUL ORQANA] qablaşdırma və markalama üzrə ən qabaqcıl təcrübələrə; yükvurmaya nəzarətə; həmçinin öz işçiləri, nəqliyyat vasitələri və binaları üçün əmniyyət və təhlükəsizlik tədbirlərinə əməl etdiklərini nümayiş etdirmiş olsunlar.

*Nəqliyyatla daşınma qaydaları*
(3) Nəzarət edilən vasitələrin və toksinlərin ölkədaxili və beynəlxalq daşınması bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən, [NƏQLİYYAT NAZİRLİYİ] tərəfindən hazırlanmış təhlükəli materialların daşınması qaydalarına, həmçinin qablaşdırma və markalama tələblərinə, yaxud [MƏSUL ORQAN] tərəfindən hazırlanmış istənilən təlimatlara uyğun olaraq aparılmalıdır. Nəzarət edilən vasitələri və ya toksinləri [ÖLKƏNİN ADI]-nin ərazisi vasitəsilə idxal edən, ixrac edən, təkrar ixrac edən, bir nəqliyyat vasitəsindən başqasına yükləyən və ya başqa ölkəyə keçirən hər bir yükdaşıyan şirkət həmçinin təhlükəli materialların daşınmasına dair bütün mövcud beynəlxalq qaydalara əməl etməlidir.

*Nəzarət edilən vasitələrin və ya toksinlərin oğurlanması, zərərə məruz qalması və ictimai şəkildə buraxılması barədə məlumat verilməsi*
(4) Bu bölməyə əsasən, nəzarət edilən vasitələri və toksinləri ölkə daxilində və beynəlxalq miqyasda daşımaq üçün təsdiq edilmiş yükdaşıyan şirkətlər [MƏSUL ORQANI], [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINI] və [[ÖLKƏNİN ADI]-nin FÖVQƏLADƏ HALLARA BİOLOJİ CAVAB TƏDBİRLƏRİ VƏ ARAŞDIRMALARA DƏSTƏK SİSTEMİNİ (BERISS) nəzarət edilən vasitələrin və ya toksinlərin oğurlanması, zərərə məruz qalması və ictimai şəkildə buraxılmasına dair dərhal məlumatlandırmalıdırlar.

## HİSSƏ D. QANUNLARIN YERİNƏ YETİRİLMƏSİNƏ NƏZARƏT

### 15. [MƏSUL ORQANIN] yaradılması, mandatı və qanunların yerinə yetirilməsinə nəzarətlə bağlı səlahiyyətləri

*Yaradılması*

(1) Bu bölmə bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] və onun əsasında hazırlanan istənilən qaydaların yerinə yetirilməsinə nəzarət üzrə [MƏSUL ORQANIN] əsasını qoyur.

*Tərkibi*[6]
(2) [MƏSUL ORQAN] aşağıdakılardan ibarət tərkibdə təşkil olunmalıdır:

(a) [Baş Nazirin, Hökumət başçısının] administrasiyasının nümayəndəsi (bu şəxs həmçinin [MƏSUL ORQANIN] Sədri kimi fəaliyyət göstərəcəkdir);
(b) Xarici İşlər Nazirliyinin nümayəndəsi;
(c) Ədliyyə Nazirliyinin nümayəndəsi;
(d) Baş Prokurorluğun nümayəndəsi;
(e) Sənaye Nazirliyinin nümayəndəsi;
(f) Ekologiya Nazirliyinin nümayəndəsi;
(g) Səhiyyə Nazirliyinin nümayəndəsi;
(h) Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi;
(i) Daxili İşlər Nazirliyinin nümayəndəsi;
(j) Nəqliyyat Nazirliyinin nümayəndəsi;
(k) [MİLLİ MƏHKƏMƏ –ELMİ LABORATORİYANIN] nümayəndəsi;
(l) [MİLLİ SƏRHƏD NƏZARƏT ORQANLARININ (GÖMRÜK, LİMAN ORQANLARI)] nümayəndələri ;
(m) [ÖLKƏNİN ADI]-nin Ticarət Palatasının nümayəndəsi;
(n) [ÖLKƏNİN ADI]-dəki bioloji sənaye birliyinin nümayəndəsi.

*[MƏSUL ORQANIN] funksiyaları və vəzifələri*
(3) [MƏSUL ORQAN] aşağıdakı funksiyaları şəffaf və yoxlamaları mümkün edə biləcək şəkildə həyata keçirməlidir:

(a) [ÖLKƏNİN ADI] üçün [MƏSUL ORQAN] olmaq;
(b) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] və onun əsasında hazırlanmış hər hansı qaydaların həyata keçirilməsinə nəzarət olunmasına rəhbərlik etmək və onu monitorinq etmək;
(c) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və onun əsasında hazırlanmış hər hansı qaydalara əsasən lisenziya və icazələr vermək;
(d) Beynəlxalq təşkilatları və digər dövlətləri [ÖLKƏNİN ADI]-nin beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinə dair müvafiq məlumatlar və informasiyalarla təmin etmək;
(e) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən, yoxlamalar təşkil etmək;
(f) Qanuni məqsədlər üçün bioloji tədqiqatların aparılmasına dair qaydalar hazırlamaq;
(g) Bioloji Xarakterli Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması və Araşdırmalara Dəstək Sistemi (BERISS) yaratmaq, onunla birgə fəaliyyət göstərmək və onun fəaliyyətlərini analiz etmək;
(h) [MƏSUL ORQANLA] digər dövlətlərdəki oxşar orqanlar arasında əməkdaşlıq yaratmaq;
(i) Müvafiq orqanlar tərəfindən həvalə edilmiş hər hansı digər tapşırıqları yerinə yetirmək;
(j) Məsul Orqanın, həmçinin Bioloji Xarakterli Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması və Araşdırmalara Dəstək Sisteminin (BERISS) fəaliyyətlərinə dair [PARLAMENTƏ, MİLLİ ŞURAYA] illik əsasla hesabatlar vermək;

[6] Siyahı yalnız nümunə xarakteri daşıyır və ölkənin konstitusional və qanuni rejimlərinə, şəraitinə, ehtiyaclarına və s. uyğunlaşdırılmalıdır.

(k) [BAŞ NAZİRƏ, HÖKUMƏT BAŞÇISINA] bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] ilə əlaqədar məsələlər haqqında məsləhətlər vermək, həmçinin Baş Nazirin və ya digər müvafiq orqanların tələb etməsi mümkün ola biləcək hər hansı informasiyaları təmin etmək.

(4) [MƏSUL ORQAN] bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] ilə əlaqədar bütün məsələlərə dair məsləhətlər təmin etmək üçün müvəqqəti işçi qrupu təyin edə bilər.

## 16. [ÖLKƏNİN ADI]-nin Bioloji Xarakterli Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması və Araşdırmalara Dəstək Sisteminin (BERISS) yaradılması

*Yaradılma*
(1) [MƏSUL ORQAN] kommunikasiyanı mümkünləşdirmək və insanların, heyvanların və ya bitkilərin sağlamlığına təsir edən bioloji xarakterli fövqəladə hallara cavab tədbirləri görmək məqsədilə BİOLOJİ XARAKTERLİ FÖVQƏLADƏ HALLARA QARŞI MÜBARİZƏ VƏ ARAŞDIRMALARA DƏSTƏK SİSTEMİ (BERISS) yaratmalı və [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINA] bioloji xarakterli hadisələrin araşdırılmasında kömək etməlidir.
*BERISS koordinasiya qrupunun tərkibi*
(2) BERISS aşağıdakı tərkibdən ibarət qrup tərəfindən idarə və koordinasiya edilməlidir:

(a) [MƏSUL ORQANIN] nümayəndəsi ([MƏSUL ORQAN] VƏ BERISS arasında əlaqələndirici kimi fəaliyyət göstərməli olan şəxs));
(b) [SƏHİYYƏ NAZİRLİYİ VƏ YA ƏRZAQ VƏ DƏRMAN VASİTƏLƏRİNİN TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ]-nin nümayəndəsi;
(c) Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi;
(d) Ekologiya Nazirliyinin nümayəndəsi;
(e) Təcili yardım həkimi;
(f) [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANININ] bioloji xarakterli fövqəladə hallara qarşı mübarizə aparmaq üçün təlim yolu ilə hazırlanmış nümayəndəsi;
(g) [MİLLİ SƏRHƏD NƏZARƏT ORQANLARININ (GÖMRÜK, LİMAN ORQANLARI)] nümayəndələri;
(h) epidemioloq;
(i) baytar-mütəxəssis;
(j) kütləvi informasiya vasitələri ilə iş üzrə mütəxəssis;
(k) bakterioloji, toksikoloji, virus, rikketsial və prion xəstəliklər üzrə mütəxəssislər;
(l) Ümumdünya Səhiyyə Təşkilatının Beynəlxalq Səhiyyə Qaydaları üzrə Milli Koordinatoru;
(m) BERISS-in münasib hesab etdiyi hər hansı digər müvafiq mütəxəssis(lər).

(3) BERISS koordinasiya qrupunun üzvlərinin milli təhlükəsizlik, hüquq-mühafizə və səhiyyə əməkdaşları ilə işləməsini mümkünləşdirmək üçün onların etibarlılığının yoxlanılması tələb edilməlidir.

*Funksiyalar və vəzifələr*
(4) BERISS koordinasiya qrupu aşağıdakı vəzifələri şəffaf və yoxlamaları mümkün edə biləcək şəkildə həyata keçirməlidir:

(a) Bioloji vasitələr və toksinlərlə əlaqədar fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün [MƏSUL ORQANLA] koordinasiya şəraitində milli və yerli tədbirlərin idarə edilməsi və həmin tədbirlərə rəhbərlik edilməsi;

(b) Digər dövlət orqanları ilə əlaqələndirmə; lazımi hallarda, nəzarət edilən vasitələrin və toksinlərin hazırlanması, əldə edilməsi, istehsalı, mülkiyyətə daxil edilməsi , saxlanması, nəqliyyatla daşınması və bir şəxsdən digərinə ötürülməsi ilə əlaqədar olan, ictimai səhiyyə və kənd təsərrüfatı sahələri üzrə nəzarət və hesabatvermə sistemlərinin yaradılması;
(c) Fövqəladə halların dövlət tərəfindən elan edilməsi sisteminin effektivliyinin təmin edilməsi;
(d) [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINDAN] olan hüquq-mühafizə orqanları əməkdaşlarının lazımi qaydada təlim keçməsinin təmin edilməsi; bioloji vasitələr və toksinlər nəticəsində yaranmış fövqəladə hallara cavab zamanı ilk yardım edən şəxslər və xəstəxanalar;
(e) bioloji vasitələr və toksinlərlə əlaqədar partlayışları aşkar etmək və müəyyənləşdirmək üçün təhlükələrə əsaslanan tibbi strategiyalar və ictimai sağlamlıq vəziyyətinin müəyyənləşdirilməsi strategiyaları yaradılması;
(f) təsnifatlaşdırılmış bioloji təhlükə məlumatlarının qəbul edilməsi və nəzərdən keçirilməsi;
(g) ictimai sağlamlığa dair informasiyaların qəbul edilməsi və nəzərdən keçirilməsi;
(h) məhkəmə-epidemioloji istintaqının baxması və və cinayət təqibi üçün tələb edilən sübutların toplanması, qorunması və təqdim edilməsi;
(i) bioloji xarakterli fövqəladə hallarla əlaqədar məlumat və informasiyaların [MƏSUL ORQANA] ötürülməsi;
(j) 2005-ci il Beynəlxalq Səhiyyə Qaydaları üzrə Milli Koordinator vasitəsilə Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə fəaliyyət göstərmək və əməkdaşlıq edilməsi;
(k) bioloji vasitələr və toksinlərlə əlaqədar fövqəladə hallara hazırlıq və onların nəticələrinin aradan qaldırılması ilə bağlı digər fəaliyyətlərin həyata keçirilməsi, o cümlədən [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINDAN] olan hüquq-mühafizə əməkdaşları ilə əməkdaşlıq edilməsi.

*Qaydalar*
(5) [MƏSUL ORQANA] shall be authorised to issue regulations providing for BERISS-in yaradılması və fəaliyyəti üçün müvafiq qaydalar hazırlamaq səlahiyyəti verilməlidir.

**17. Sənədləşdirmə, hesabatvermə və müvafiq qanun pozuntuları**

*Məqsəd*
(1) Bu bölmənin məqsədi aşağıdakıları təmin etməkdir:

(a) Nəzarət edilən vasitələrin və toksinlərin yalnız qanuni məqsədlər üçün hazırlanması, əldə edilməsi, istehsal edilməsi, mülkiyyətə daxil edilməsi, saxlanması, nəqliyyatla daşınması, başqa şəxslərə ötürülməsi və ya istifadə edilməsi;
(b) nəzarət edilən vasitələrin və toksinlərin hazırlandığı, əldə edildiyi, istehsal edildiyi, mülkiyyətə daxil edildiyi, saxlandığı, nəqliyyatla daşındığı, başqa şəxslərə ötürüldüyü və ya istifadə edildiyi yerlərin fiziki baxımdan təhlükəsiz olması.

(2) Bu bölmə çərçivəsindəki hər hansı səlahiyyət yalnız bu hissənin 1-ci bölməsində göstərilmiş məqsədlər üçün həyata keçirilə bilər.

*Sənədləşdirmə və informasiya təminatı*
(3) Hər bir fiziki şəxs, hüquqi şəxs və yükdaşıyan şirkət bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və onun əsasında hazırlanmış qaydalara uyğun olaraq, aşağıdakıları həyata keçirməlidir:

(a) fiziki şəxsin, hüquqi şəxsin və ya yükdaşıyan şirkətin öz fəaliyyətlərini həyata keçirdiyi ərazidə və ya [MƏSUL ORQAN] tərəfindən təyin edilə biləcək bu qəbildən olan digər ərazidə qaydalarla müəyyənləşdirilmiş məlumat, informasiya və sənədlərin həmin qaydalarda müəyyənləşdirilmiş qaydada və müddətdə saxlanması və mühafizə edilməsi;
(b) Bu cür məlumat, informasiya və sənədlər əsasında, qaydalara əsasən tələb edilməsi mümkün ola biləcək hesabatlar hazırlamaq;
(c) Bu cür hesabatları [MƏSUL ORQANA] və ya bu qaydalarda göstərilmiş vaxtlarda və formada həmin qaydalarda göstərilmiş hər hansı digər orqana təqdim etmək.

*İnformasiyaların açıqlanmasına dair bildiriş*
(4) [MƏSUL ORQAN] ağlabatan əsaslara görə, bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] həyata keçirilməsinə nəzarətlə bağlı məlumat, informasiya və sənədlərə malik olduğunu güman etdiyi fiziki şəxsə, hüquqi şəxsə və ya yükdaşıyan şirkətə onun [MƏSUL ORQANA] məlumat, informasiya və ya sənədlər təqdim etməsini tələb edən bildiriş göndərə bilər.

(5) Bu hissənin 4-cü bölməsində qeyd edilmiş bildirişi alan fiziki şəxs, hüquqi şəxs və ya yükdaşıyan şirkət öz nəzarəti altında olan tələb edilmiş məlumat, informasiya və sənədləri bildirişdə göstərilmiş formada və müddətdə [MƏSUL ORQANA] təqdim etməlidir.

*[MƏSUL ORQAN] tərəfindən informasiyanın ötürülməsi*
(6) [MƏSUL ORQANA] bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq əldə edilmiş müvafiq məlumat və informasiyaları digər dövlətlərə və beynəlxalq təşkilatlara ötürmək səlahiyyəti verilir.

*Qanun pozuntuları*
(7) [MƏSUL ORQANA] hər hansı məlumat, informasiya və ya sənəd təqdim etməyən və ya bu bölməyə uyğun olaraq hazırlanmış hər hansı məlumat, informasiya, sənəd və ya hesabatda saxta və ya yanıldıcı məlumat verən hər bir şəxs qanun pozuntusu törətmiş olur.

(8) Hər hansı bir məsələnin bu bölməyə uyğun olaraq hazırlanmış hər hansı məlumat, informasiya, sənəd və ya hesabatı saxtalaşdıracağını və ya yanıldıcı xarakterli məlumat, informasiya, sənəd və ya hesabata çevirəcəyini bilərək həmin məsələni nəzərdən qaçıran hər bir şəxs qanun pozuntusu törətmiş olur.

(9) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və ya onun əsasında hazırlanmış hər hansı qaydalara uyğun olaraq məlumat, informasiya, sənəd və ya hesabat əldə etmiş hər hansı bir şəxs həmin məlumat, informasiya, sənəd və ya hesabatları yazılı icazə əldə etmədən istənilən formada hər hansı digər şəxsə ötürən şəxs qanun pozuntusu törətmiş olur. Aşağıdakı hallar istisnadır:

(a) bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] və ya onun əsasında hazırlanmış istənilən qaydaların həyata keçirilməsinə nəzarət və ya onun tətbiqi, həmçinin cinayətlərin istintaqı və məlumatların analizi məqsədilə belə hərəkətə yol vermə;
(b) [ÖLKƏNİN ADI]-nin beynəlxalq öhdəliyinə uyğun olaraq;
(c) Həmin məlumat, informasiya, sənəd və ya hesabatların müəyyən həddə ictimai sağlamlıq naminə açıqlanmasının və ya başqalarına bildirilməsinin tələb edildiyi həddə açıqlama və ya başqalarına bildirmə.

## 18. Yoxlamalar

*Məqsəd*
(1) Bu bölməyə əsasən, [MƏSUL ORQANA] bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən hazırlanmış qaydalara uyğun olaraq, fiziki şəxslərin, hüquqi şəxslərin (və onların obyekt və ərazilərinin) və yükdaşıyan şirkətlərin bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və onun əsasında hazırlanmış hər hansı qaydalara, həmçinin bütün mövcud biotəhlükəsizlik tədbirlərinə əməl etməsini təmin etmək məqsədilə onları yoxlamaq səlahiyyəti verilir.

*Müfəttişlərin təyin edilməsi*
(2) [MƏSUL ORQAN] bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] icrasına nəzarəti həyata keçirmək məqsədilə, müəyyən şəxsləri və ya şəxslərin qruplarını[7] müfəttişlər qismində təyin edə bilər və təftiş-yoxlama fəaliyyətlərinin həyata keçirilməsinə dair şərtləri müəyyənləşdirə bilər.

*Təftişin həyata keçirilməsi*
(3) Müfəttiş aşağıdakıları təmin etmək məqsədilə, hər hansı bir obyektdə nəzarət həyata keçirən şəxsin razılığı ilə və ya hər hansı zəmanətə əsasən, həmin obyektə daxil ola və bu hissənin 4-cü bölməsində göstərilmiş istənilən səlahiyyətləri həyata keçirə bilər:

(a) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] və onun əsasında hazırlanmış hər hansı qaydaların müddəalarına əməl edilmiş olmasını və ya hal-hazırda əməl edilməkdə olmasını təmin etmək;
(b) 11-ci və 13-cü bölmələrə əsasən verilmiş hər hansı lisenziya və ya icazəyə tətbiq edilməsi mümkün olan şərtlərə lisenziya və ya icazə sahibi tərəfindən əməl edilmiş olmasını və ya onlara hal-hazırda əməl edilməsini təmin etmək.

*Səlahiyyətlər*
(4) Təftişi həyata keçirən müfəttiş aşağıdakı hərəkətləri həyata keçirə bilər:

(a) istənilən torpaq, bina və ya tikilidə axtarış aparmaq;
(b) obyektin daxilində və ya ətrafında hər hansı foto və ya videoyazı cihazlarından istifadə etmək (obyektdə qüvvədə olan təhlükəsizlik qaydalarının buna icazə verdiyi halda);
(c) təhqiqata kömək edə biləcəyini güman etdiyi hər hansı şəxsin iştirakını və ya sorğu-sual olunmasını tələb etmək;
(d) bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] həyata keçirilməsi ilə əlaqədar ola biləcəyini güman etdiyi hər hansı maddəni və ya əşyanı yoxlamaq və ya araşdırmaq, onlardan nümunələr götürmək, onları saxlamaq və məhv etmək;
(e) istənilən şəxsdən, bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] həyata keçirilməsi ilə əlaqədar ola biləcəyini güman etdiyi hər hansı informasiyanı özündə ehtiva edən hər hansı sənədi və ya onun surətini təqdim etməsini tələb etmək;
(f) hər hansı avadanlıqdan hər hansı məlumatların və ya qeydlərin, mühasibat kitabının və ya digər sənədlərin surətini çıxarmaq üçün yerindəcə istifadə etmək və ya istifadə edilməsinə məcbur etmək;

[7] Dövlətlər laboratoriyalarda və digər yerlərdə artıq biotəhlükəsizliyə cavabdehliyin həvalə edildiyi əməkdaşları, o cümlədən biotəhlükəsizlik və bioloji xarakterli fövqəladə halların nəticələrinin aradan qaldırılması sahələrində təlim keçilmiş hüquq-mühafizə orqanları əməkdaşlarını bu bölmədəki məqsədlər üçün ytəftiş qrupunun üzvləri kimi təyin etmək arzusunda ola bilər.

(g) kompyuterdə və ya sistemdə mövcud olan hər hansı məlumatları yoxlamaq üçün istənilən kompyuter və ya məlumat hazırlama sistemindən istifadə etmək və ya istifadə edilməsinə məcbur etmək;
(h) çap edilmiş formada olan və ya digər anlaşıqlı sənədlərdə olan məlumatların surətini çıxarmaq və ya surətinin çıxarılmasına məcbur etmək, həmçinin çap olunmuş həmin sənədi və ya digər sənədləri baxılması və surətinin çıxarılması üçün götürmək;
(i) obyektdə yerləşən hər hansı avadanlıqdan, o cümlədən elektron avadanlıqdan istifadə etmək;
(j) müvafiq hallarda, özü tərəfindən seçilmiş və [MƏSUL ORQAN] tərəfindən təsdiqlənmiş ekspertlə təmin edilmək;
(k) binaya nəzarət edən hər hansı şəxsin müfəttişin münasib hesab etdiyi hər hansı digər ağlabatan tədbirlərin həyata keçirməsini tələb etmək.

(5) Bu hissənin 4-cü bölməsində göstərilmiş səlahiyyətlərdən yalnız nəzarətə məsul şəxsin ağlabatan əsaslara görə, obyektdəki təhlükəsizlik qaydalarına uyğun olduğunu güman etdiyi şəkildə istifadə edilə bilər.

*Təftiş üçün zəmanətlər*
(6) Bu hissənin 3-cü bölməsinə uyğun olaraq, nəzarətə məsul şəxsin icazəsini almaq mümkün olmadıqda və ya belə icazənin verilməsindən imtina edildiyi halda, müfəttiş zəmanət əldə etmək üçün müraciət edə bilər.

(7) [BARIŞIQ MƏHKƏMƏSİ, BARIŞIQ MƏHKƏMƏSİNİN HAKİMİ] aşağıdakıları güman etmək üçün kifayət qədər əsasların olduğunu qəbul etdiyi halda, müfəttişin həmin obyektə/əraziyə daxil olmasına icazə verən zəmanət sənədi verə bilər (zəmanətdə göstərilə biləcək hər hansı şərtlərə uyğun olaraq):

(a) obyektə və ya əraziyə giriş bu hissənin 1-ci bölməsində göstərilmiş məqsədlər üçün zəruri olduqda;
(b) obyektə/əraziyə daxil olmaq üçün icazə əldə etmək mümkün olmadıqda və ya belə icazənin verilməsindən imtina edildikdə, yaxud girişə icazə verilməsindən imtina ediləcəyini güman etməyə əsaslı səbəblər olduqda.

**19. Müfəttişlərin öhdəlikləri**

*Eyniləşdirmə sertifikatları*
(1) Müfəttiş, ekspert və ya [MƏSUL ORQANIN] nümayəndəsinə təyin edilməyə dair şəhadətnamə verilməlidir.

(2) Müfəttiş, ekspert və ya [MƏSUL ORQANIN] nümayəndəsi bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq, ağlabatan vaxtda hər hansı obyektə/əraziyə daxil olarkən, həmin obyektə/əraziyə nəzarəti həyata keçirən məsul şəxsin tələbinə əsasən, öz təyinat şəhadətnaməsini təqdim etməlidir.

*Girişə və müsadirəyə dair məlumat verilməsi*
(3) Hər bir müfəttiş təftişi başa çatdırdıqdan sonra mümkün qədər tez bir müddətdə həmin obyektə/əraziyə nəzarəti həyata keçirən şəxsə həmin obyektə/əraziyə daxil olduğuna dair yazılı məlumat təqdim etməlidir - hər hansı obyektə/əraziyə daxil olma vaxtı ilə təftişin başa çatdırıldığı vaxt arasında olan müddətdə obyektə/əraziyə heç bir şəxs tərəfindən nəzarət olunmadığı halda - və aşağıdakı məsələləri xüsusi olaraq göstərməlidir:

(a) giriş vaxtı və tarixi;
(b) girişin şərtləri və məqsədi;
(c) daxil olan hər bir şəxsin adı.

(4) Hər bir müfəttiş bu hissənin 3-cü bölməsində göstərilmiş bütün sənədlərin surətlərini [MƏSUL ORQANA] təqdim etməlidir.

(5) Hər bir müfəttiş mümkün hallarda zəmanət sənədini özü ilə götürməli və həmin sənədin təqdim edilməsi tələb edildiyi halda, onu təqdim etməlidir, həmçinin hər hansı bir əşya müsadirə edildiyi halda, obyektə/əraziyə nəzarəti həyata keçirən şəxsə bu cür müsadirə edilmiş bütün əşyaların siyahısını təqdim etməlidir.

*Müfəttişin hesabatı və təhqiqat üçün yönləndirmə*
(6) Hər bir müfəttiş həyata keçirdiyi təftişə dair [MƏSUL ORQANA] hesabat təqdim etməli və bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və ya onun əsasında hazırlanmış qaydalara güman edilən əməl edilməmə hallarını göstərməlidir. [MƏSUL ORQAN] güman edilən əməl edilməmə hallarına dair məlumatı 22-ci bölməyə uyğun olaraq, [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINA] yönləndirə bilər.

**20. Təftiş aparılan obyektlərə/ ərazilərə nəzarət edən şəxslərin öhdəlikləri və müvafiq qanun pozuntuları**

*Müfəttişlərə kömək*
(1) 18-ci bölməyə uyğun şəkildə daxil olunmuş obyektə/əraziyə nəzarət edən şəxs və obyektdə/ərazidə olan hər kəs müfəttişin və onu müşayiət edən hər hansı ekspertin öz vəzifələrini həyata keçirməsini təmin etmək üün onlara bütün mümkün köməyi göstərməli və müfəttişi onun bu [AKTUN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] həyata keçirilməsi ilə əlaqədar məntiqəuyğun şəkildə tələb etdiyi istənilən informasiya ilə təmin etməlidir.

*Yazılı göstərişlər*
(2) [MƏSUL ORQAN] yazılı şəkildə bildiriş təqdim etməklə, 18-ci bölməyə uyğun olaraq yoxlama aparmaq məqsədilə, hər hansı bir şəxsə göstərişlər verə bilər.

*Qanun pozuntuları*
(3) Bu hissənin 2-ci bölməsinə uyğun olaraq [MƏSUL ORQAN] tərəfindən verilmiş ağlabatan göstərişlərə əməl etməyən şəxs qanun pozuntusu törətmiş olur.

(4) Planlaşdırılmış funksiyalarını və ya 18-ci bölmədə göstərilmiş səlahiyyətlərini icra edən müfəttişə və ya müfəttişi müşayiət edən ekspertə mane olan, müqavimət göstərən, onu aldadan, yaxud saxta və ya yanıldıcı məlumat təqdim edən şəxs qanun pozuntusu törətmiş olur.

(5)18-ci bölməyə əsasən müsadirə edilmiş hər hansı əşyanı müfəttişin icazəsi olmadan istənilən üsulla aradan qaldıran, dəyişdirən və ya ona müdaxilə edən şəxs qanun pozuntusu törətmiş olur.

**21. Təhlükəsizlik tədbirləri tələb edən göstərişlər və müvafiq qanun pozuntusu**

(1) [MƏSUL ORQAN] hər hansı bir fiziki şəxsə, yaxud obyekt/ərazi ilə bağlı məsələlər olduqda, həmin obyektin/ərazinin Normalara əməl edilməsinə nəzarət üzrə məsul şəxsinə yazılı göstərişlər verə və onların aşağıdakıları etməsini tələb edə bilər:

(a) Nəzarət edilən vasitələrin və ya toksinlərin, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanın təhlükəsizliyini təmin etmək məqsədilə bu kimi tədbirlər həyata keçirmək;
(b) Hər hansı təhlükəsizlik planlarını nəzərdən keçirmək və yeniləmək;
(c) [MƏSUL ORQAN] tərəfindən məntiqi olaraq tələb edilməsi mümkün olan hər hansı digər tədbirlər həyata keçirmək.

(2) [MƏSUL ORQAN] hər hansı müvafiq ərazidə nəzarət edilən vasitələrin və ya toksinlərin, yaxud nəzarət edilən avadanlıq və ya texnologiyanın təhlükəsizliyini təmin etmək üçün müvafiq tədbirlərin tətbiq edilmədiyini və ya tətbiq edilməsi ehtimalının olmadığını güman etmək üçün tutarlı əsaslara malik olduğu halda, həmin fiziki şəxsə, yaxud obyekt/ərazi ilə bağlı məsələlər olduqda, həmin obyektin/ərazinin Normalara əməl edilməsinə nəzarət üzrə məsul şəxsinə yazılı göstərişlər verə və onların həmin maddə və əşyaları məhv etməsini və ya istifadə etməsini tələb edə bilər. Göstərişlərdə həmin maddə və əşyaların necə və nə vaxtadək məhv edilməli və ya istifadə edilməli olduğu göstərilməlidir.

*Qanun pozuntusu*
(3) Bu hissənin 1-ci və 2-ci bölmələrinə əsasən, [MƏSUL ORQAN] tərəfindən verilmiş təlimatlara əməl etməyən şəxs qanun pozuntusu törətmiş hesab edilir.

**22. Yoxlamalar**

*Məqsəd*
(1) Bu bölmənin məqsədi bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] güman edilən pozulması hallarının araşdırılmasında [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANI], [MƏSUL ORQAN] və BERISS arasında əməkdaşlığa kömək etməkdən ibarətdir.

*Yoxlamalar*
(2) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] pozulması güman edildiyi halda, [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANINA] [MƏSUL ORQAN] və BERISS ilə koordinasiya edilməklə, güman edilən qanun pozuntusunu araşdırmaq səlahiyyəti verilir.

(3) [MƏSUL ORQAN], BERISS, hər hansı bir fiziki şəxs, hüquqi şəxs və ya yükdaşıyan şirkət tərəfindən bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq hazırlanmış bütün sənədlər bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] güman edilən pozulması hallarını araşdıran [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANININ] hüquq-mühafizə əməkdaşlarının istifadəsi üçün açıq olmalıdır.

(4) Yoxlamalar və ya istintaq zamanı toplanmış istənilən nümunələr bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] və ya hər hansı digər [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən hazırlanmış qaydalara uyğun olaraq təhlil edilməli və təhlilin nəticələrindən məhkəmə proseslərində sübut kimi istifadə edilməlidir.

*Təlim*
(5) [MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANININ] hüquq-mühafizə əməkdaşlarını bu bölməyə uyğun olaraq təhqiqata/istintaqa hazırlamaq məqsədilə, BERISS onlar üçün bioloji xarakterli fövqəladə halların nəticələrinin aradan qaldırılması sahəsində təlim keçilməli, həmçinin aşağıdakıları təmin etməlidir:

(a) Bioterrorçuluq haqqında ümumi məlumat;

(b) Bioloji xarakterli fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində milli və beynəlxalq hüquqi baza, həmçinin Bioloji və toksin silahlar haqqında Konvensiya və özündə bioloji vasitələri və toksinləri ehtiva edən qadağan edilmiş fəaliyyətlər barədə anlayış;
(c) Fərdi mühafizə avadanlığından düzgün istifadə;
(d) digər müvafiq təhlükəsizlik prosedurları;
(e) səhiyyə sahəsində çalışan heyətlə birgə müsahibələrin keçirilməsi və sənədləşmə işlərinin aparılması kimi ixtisaslaşdırılmış araşdırma metodları;
(f) məhdudiyyətlər;
(g) bioloji təhlükənin qiymətləndirilməsi;
(h) sübutların toplanması və nümunələrin götürülməsi kimi bərpa tədbirləri;
(i) vacib prosedurlar, məsələn, qandallama .

**23. Müsadirə, mülkiyyət hüquqlarından məhrum etmə və məhv etmə**

(1) [MƏSUL ORQAN VƏ YA MÜVAFİQ HÜQUQ-MÜHAFİZƏ ORQANI] aşağıdakılara icazə verən zəmanət sənədi əldə etmək üçün müraciət edə bilər:

(a) bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] ilə qadağan edilmiş hər hansı fəaliyyətlə əlaqədar istənilən bioloji vasitə və ya toksinin, yaxud avadanlıq və ya texnologiyanın müsadirə edilməsi;
(b) bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] ilə qadağan edilmiş hər hansı fəaliyyətlə əlaqədar maliyyə hesablarının dondurulması və ya müsadirəsi.

(2) Təxirəsalınmaz hallarda, bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] ilə qadağan edilmiş hər hansı fəaliyyətlə əlaqədar istənilən bioloji vasitənin və ya toksinin, yaxud avadanlıq və ya texnologiyanın [MƏSUL ORQAN] tərəfindən müsadirə edilməsinə zəmanət sənədi olmadan icazə verilə bilər.

(3) Bu hissənin 1-ci və 2-ci bölmələrinə uyğun olaraq müsadirə edilmiş əmlak potensial iddiaçılar məlumatlandırıldıqdan və işə məhkəmədə baxılma imkanı təmin edildikdən sonra dövlətin xeyrinə müsadirə edilməlidir. Bu cür məhkəmə prosesində, hökumət müsadirə edilmiş əmlakın sübutların üstünlüyü prinsipi vasitəsilə bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq qadağan edilmiş hərəkətə aid olduğunu sübuta yetirmə vəzifəsi daşıyır.

(4) [MƏSUL ORQAN] bu bölməyə uyğun olaraq müsadirə edilmiş və mülkiyyət hüquqları ləğv edilmiş hər hansı bioloji vasitənin və ya toksinin, yaxud avadanlıq və ya texnologiyanın məhv edilməsi və ya digər müvafiq istifadəsini əsaslandıra bilər.

**24. Məhkəmə qərarları**

[MƏSUL ORQAN] müvafiq məhkəmə orqanlarından Hissə B-yə əsasən qadağan edilmiş davranış əleyhinə müvafiq qərar əldə edə bilər.

**25. Davam edən qanun pozuntusu**

[Bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] çərçivəsində hər hansı qanun pozuntusu törədildikdə və ya həmin qanun pozuntusu bir gündən artıq davam etdikdə, qanun pozuntusunu törədən şəxs qanun pozuntusunun ötərdildiyi və ya davam etdiyi hər gün üçün ayrı-ayrı qanun pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb ediləcəkdir].

## 26. Cinayət məsuliyyəti və mülki məsuliyyət

*Fiziki və hüquqi şəxslərin cinayət məsuliyyəti*
(1) Qanunun digər müddəalarına uyğun olaraq tətbiq edilməsi mümkün olan hər hansı cəza (cinayətlərə, [ÖLKƏNİN ADI]-nin lisenziya qaydalarını, daşınmaya nəzarət sahəsində qanunlarını pozmağa görə cəzalar daxil olmaqla) ilə yanaşı, bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] B, C və D hissələrinin və onun əsasında hazırlanmış qaydaların fiziki və hüquqi şəxslər tərəfindən pozulmasına görə bu hissənin 3-8-ci bölmələrində göstərilmiş cəzalar tətbiq ediləcəkdir.

*Müəssisə direktorlarının, menecerlərinin, katiblərinin və digər məsul əməkdaşların məsuliyyəti*
(2) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq, hər hansı bir qanun pozuntusu hüquqi şəxs tərəfindən törədildikdə və onun direktor, menecer, katib və ya hüquqi şəxsin hər hansı bu qəbildən olan əməkdaşının razılığı ilə və səhlənkarlığı, yaxud etinasızlığı nəticəsində törədildiyi sübuta yetirildikdə, həmin fiziki şəxs və hüquqi şəxs belə qanun pozuntusuna görə təqsirləndiriləcək, həmçinin bu bölməyə uyğun olaraq, hüquqi prosesə cəlb ediləcək və cəzalandırılacaqdır.

*Bioloji vasitələrdən və toksinlərdən qanunsuz istifadə*
(3) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 5-ci bölməsinə əsasən, qanun pozuntusu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb ediləcək və barəsində aşağıdakı ittihamedici hökmlər çıxarılacaqdır:

(a) Cinayət törədən fiziki şəxs olduqda - [MÜDDƏT] ildən artıq olmamaqla azadlıqdan məhrum etmə və ya [MƏBLƏĞ]-dən artıq olmayan cərimə, yaxud bu cəzaların hər ikisi birlikdə;
(b) Cinayət törədən fiziki şəxs olduqda və cinayət ölümlə nəticələndikdə - [ÖMÜRLÜK AZADLIQDAN MƏHRUM ETMƏ]
(c) Cinayət törədən hüquqi şəxs olduqda - [MƏBLƏĞ]-dən artıq olmayan cərimə.

(4) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 6-cı bölməsinə əsasən, cinayət törətmiş şəxs cinayət məsuliyyətinə cəlb ediləcək və onun barəsində aşağıdakı ittihamedici hökmlər çıxarılacaqdır:

(a) Cinayət törədən fiziki şəxs olduqda - [MÜDDƏT] ildən artıq olmamaqla azadlıqdan məhrum etmə və ya [MƏBLƏĞ]-dən artıq olmayan cərimə, yaxud bu cəzaların hər ikisi birlikdə;
(b) Cinayət törədən fiziki şəxs olduqda və cinayət ölümlə nəticələndikdə - [ÖMÜRLÜK AZADLIQDAN MƏHRUM ETMƏ];
(c) Cinayət törədən hüquqi şəxs olduqda - [MƏBLƏĞ]-dən artıq olmayan cərimə.

(5) Bu hissənin 3-cü və 4-cü bölmələrinə əsasən cinayət təqibi həyata keçirildikdə, 11-ci və ya 13-cü bölməyə uyğun olaraq lazımi şəkildə verilmiş lisenziyası və ya icazəsi olan fiziki şəxsin və ya hüquqi şəxsin lisenziya və ya icazədə siyahısı göstərilmiş nəzarət olunan vasitələri və ya toksinləri hazırlamaq, əldə etməq, istehsal etmək, mülkiyyətə daxil etmək, saxlamaq, nəqliyyatla daşımaq, digər şəxlərə ötürmək və ya istifadə etməklə bağlı qanuni məqsədinin olduğuna dair sübutetmə prezumpsiyası olmalıdır.

*Sənədləşdirmə və hesabatvermə*
(6) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 17-ci bölməsinə əsasən, cinayət törədən şəxs cinayət məsuliyyətinə cəlb ediləcək və onun barəsində aşağıdakı ittihamedici hökmlər çıxarılacaqdır:

(a) Cinayət fiziki şəxs tərəfindən törədildikdə, [MÜDDƏT] ildən artıq olmayaraq azadlıqdan məhrum etmə və ya [MƏBLƏĞ]-dən artıq olmayan cərimə, yaxud hər ikisi;
(b) Cinayət hüquqi şəxs tərəfindən törədildikdə, [MƏBLƏĞ]-dən artıq olmayan cərimə.

*Təftiş edilən obyektlərə/ərazilərə nəzarəti həyata keçirən şəxslərin öhdəlikləri*
(7) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 20-ci bölməsinə əsasən, cinayət törədən şəxs cinayət məsuliyyətinə cəlb ediləcək və onun barəsində aşağıdakı ittihamedici hökmlər çıxarılacaqdır:

(a) Cinayət fiziki şəxs tərəfindən törədildikdə, [MÜDDƏT] ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə və ya [MƏBLƏĞ]-dən artıq olmayan məbləğdə cərimə, yaxud hər ikisi;
(b) Cinayət hüquqi şəxs tərəfindən törədildikdə, [MƏBLƏĞ]-dən artıq olmayan cərimə.

*Təhlükəsizlik tədbirləri tələb edən istiqamətlər*
(8) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] 21-ci bölməsinə əsasən, cinayət törədən şəxs cinayət məsuliyyətinə cəlb ediləcək və onun barəsində aşağıdakı ittihamedici hökmlər çıxarılacaqdır:

(a) Cinayət fiziki şəxs tərəfindən törədildikdə, [MÜDDƏT] ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə və ya [MƏBLƏĞ]-dən artıq olmayan cərimə, yaxud hər ikisi;
(b) Cinayət hüquqi şəxs tərəfindən törədildikdə, [MƏBLƏĞ]-dən artıq olmayan cərimə.

**27. Tətbiq etmə**

(1) Bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] aşağıdakılara da şamil edilir:

(a) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq, qadağan edilmiş, [ÖLKƏNİN ADI]-nin ərazisində hər hansı fiziki və ya hüquqi şəxs tərəfindən törədilən hərəkət və ya hərəkətsizlik;
(b) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq qadağan edilmiş, hər hansı bir [ÖLKƏNİN ADI]-nin hüdudlarından kənarda törədilən hərəkət və ya hərəkətsizlik;
(c) Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olaraq qadağan edilmiş, [ÖLKƏNİN ADI]-nin dəniz gəmilərində və ya təyyarələrində törədilən hərəkət və ya hərəkətsizlik;
(d) to acts or omissions prohibited by Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən qadağan edilmiş, vətəndaşlığı olmayan şəxs və ya doğulduğu vaxtdan [ÖLKƏNİN ADI]-nin ərazisində məskunlaşmış şəxs tərəfindən törədilən hərəkət və ya hərəkətsizlik;
(e) to acts or omissions prohibited by Bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] əsasən qadağan edilmiş, [ÖLKƏNİN ADI]-yə və ya onun əhalisinə zərər vurmaq, yaxud [ÖLKƏNİN ADI]-ni hər hansı hərəkəti etməkdən çəkindirmək niyyəti ilə törədilən hərəkət və ya hərəkətsizlik;
(f) Bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] tərəfindən qadağan edilmiş, nəticələrindən [ÖLKƏNİN ADI]-nin vətəndaşının zərər çəkdiyi hərəkət və ya hərəkətsizlik.

(2) Bu hissənin 1-ci bölməsində göstərilmiş məqsədlər üçün, “[ÖLKƏNİN ADI]-nin dəniz gəmiləri və təyyarələri” dedikdə, [ÖLKƏNİN ADI]-də qeydiyyatdan keçmiş və ya həmin ölkəyə məxsus olan, yaxud onun mükiyyətində olan gəmilər və ya təyyarələr nəzərdə tutulur.

**28. Hüquq sahəsində əməkdaşlıq və yardım**

(1) Bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] B issəsində göstərilmiş qanun pozuntularının ekstradisiya olunmanı tələb edən cinayətlər kimi, [ÖLKƏNİN ADI] və digər dövlətlər arasında mövcud olan ekstradisiya müqavilələrinə daxil edilməsi nəzərdən keçirilməlidir.

(2) Buna baxmayaraq, bu hissənin 1-ci bölməsinə əsasən, [ÖLKƏNİN ADI]-nin cinayətlərin qarşısının alınması, cinayət proseslərinin həyata keçirilməsi və bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] həyata keçirilməsinə məsul olan səlahiyyətli orqanları digər səlahiyyətli dövlət orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edə bilər, həmçinin öz fəaliyyətlərini bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] və ya ona bərabər tutulan xarici qanun(lar) icrasının tələb etdiyi həddə koordinasiya edə bilərlər. Bu zaman dövlət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən dövlət sirri rejiminə əməl olunmalıdır.

(3) [ÖLKƏNİN ADI]-nin səlahiyyətli orqanları  bu hissənin 2-ci bölməsində göstərilmiş digər dövlət orqanlarından və beynəlxalq təşkilatlardan müvafiq məlumat və informasiya vermələrini xahiş edə bilərlər. [ÖLKƏNİN ADI]-nin səlahiyyətli orqanlarına bir sıra *digər məsələlərlə yanaşı,* aşağıdakılarla əlaqədar məlumat və informasiyalar əldə etmək səlahiyyəti verilir:

(a) nəzarət edilən olub-olmamasından asılı olmayaraq, bioloji vasitələrin və toksinlərin hazırlanması, əldə edilməsi, istehsalı, mülkiyyətə daxil edilməsi, saxlanması, nəqliyyatla daşınması, başqa şəxslərə ötürülməsi və ya istifadə edilməsi;
(b) ikitəyinatlı bioloji avadanlıq və texnologiya, nəzarət edilən olub-olmamasından asılı olmayaraq;
(c) bu hissənin (a) və (b) bölmələrindəki məlumatlara daxil edilmiş şəxslər.

(4) Hər hansı bir dövlət [ÖLKƏNİN ADI] ilə müvafiq qarşılıqlı əməkdaşlıq  müqaviləsinə daxil olduqda, [ÖLKƏNİN ADI]-nin səlahiyyətli orqanları öz təşəbbüsləri və ya  müraicətləri əsasında, həmin dövlətə bu hissənin 3-cü bölməsində göstərilmiş məlumat və informasiyaları təqdim edə bilərlər - digər bir səlahiyyətli dövlət orqanı bu cür məlumat və ya informasiyadan aşağıdakı kimi istifadə ediləcəyinə təminat verdiyi halda :

(a) yalnız bu [AKTA, ƏSASNAMƏYƏ, QƏRARA, QANUNA] uyğun olan məqsədlər üçün istifadə edildikdə;
(b) onlar yalnız beynəlxalq məhkəmə əməkdaşlığını tənzimləyən müddəalara uyğun olaraq əldə edildiyi halda, cinayət proseslərində istifadə edildikdə.

(5) [ÖLKƏNİN ADI]-nin səlahiyyətli dövlət orqanları] bu hissənin 4-cü bölməsində göstərilmiş şərtlər yerinə yetirildiyi və beləliklə, qarşılıqlı əməkdaşlıq müqaviləsinin bağlanmasına dair tələb ləğv ediliyi halda, beynəlxalq təşkilatlara bu bu hissənin 3-cü bölməsində göstərilmiş məlumat və informasiyaları təqdim edə bilərlər.

(6) Bu [AKTIN,ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] B hissəsində göstərilmiş qanun pozuntularından heç biri bu bölməyə uyğun olaraq, ekstradisiya, yaxud hüquq sahəsində əməkdaşlıq və yardım məqsədləri üçün, həmçinin siyasi cinayət kimi, yaxud siyasi cinayətlə bağlı

olan qanun pozuntusu və ya siyasi motivlərlə stimullaşdırılan cinayət kimi nəzərdən keçirilə bilməz.

## HİSSƏ E. QAYDALAR

**29. Qaydalar**

Bu [AKTDA, ƏSASNAMƏDƏ, QƏRARDA, QANUNDA] tələb edilən qaydalardan əlavə, [MƏSUL ORQAN] və ya bu [AKT, ƏSASNAMƏ, QƏRAR, QANUN] ilə əlaqədar səlahiyyətlərə malik olan hər hansı bir Nazir bu [AKTIN, ƏSASNAMƏNİN, QƏRARIN, QANUNUN] məqsədlərini və şərtlərini həyata keçirmək üçün bu qəbildən olan başqa qaydalar da hazırlaya bilər.

---